# CULTURAL SCIENCES

## XX CENTURY AZERBAIJANI PROFESSIONAL MUSIC FROM EUROPEAN MUSICAL TRADITIONS RULES OF USE

**Kardashbeyova N.,**
*Nakhchivan State University*
*Piano chair*
**Kardashbekova N.**
*Nakhchivan State University*
*Nakhjavan, Azerbaijan*

## XX ƏSR AZƏRBAYCAN PROFESSİONAL MUSİQİSİNDƏ AVROPA MUSİQİ ƏNƏNƏLƏRİNDƏN İSTİFADƏ QAYDALARI

**Qardaşbəyova N.A.**
*NaxçıvanDövlət Universiteti*
*Fortepiano kafedrası*
**Kardashbekova N.A.**
***Nakhchivan State University***
*Nakhjavan,Azerbaijan.*
https://doi.org/10.5281/zenodo.10581730

**Abstract**

Azerbaijani music, having ancient trends that have passed through the centuries, continues today in mugham, ashiq art, folk songs and dances. The use of European musical traditions along with the national musical traditions of the 20th century Azerbaijani composers' music means the combination of two musical cultural traditions that are very far from each other. It can be said that the beginning of 20th century Azerbaijani professional music is precisely the opera "Leyli and Majnun". This, in turn, is a very necessary reality, and its great achievement, of course, makes the composer's activity very effective. Thus, "Leyli and Majnun" creates a different and interesting impression as a work, and it is certainly impossible not to see it. In this piece written by the composer in a completely new style, he first presented it to the audience by combining Eastern and Western musical trends. Here, Uzeyir Hajibeyli refers to the opera genre, which is the main genre of European music.

**Xülasə**

Azərbaycan musiqisi əsrlərdən keçən qədim tendensiyalara malik olaraq bu gün də yaşayan və gözəlliyini itirməyən muğam , aşıq sənəti , xalq mahnı və rəqslərdə davam edir. XX əsr Azərbaycan bəstəkar musiqisində yaşayan milli musiqi ənənələri ilə birlikdə Avropa musiqi ənənələrindən də istifadə olunması, bir-birindən çox uzaq iki musiqi mədəniyyət ənənələrinin birləşməsi deməkdir. Demək olar ki ,XX əsr Azərbaycan professional musiqisinin başlanğıcını məhz “ Leyli və Məcnun” operası təşkil edir. Bu öz növbəsində çox zəruri bir gerçəklikdir və onun böyük nailiyyəti , təbii ki, bəstəkarın fəaliyyətini də olduqca səmərəli edir. Belə ki, “ Leyli və Məcnun” bir əsər kimi fərqli , maraqlı təəssürat yaradır və bunu əlbəttə görməmək mümkün deyil. Bəstəkar qələmə aldığı , tamamilə yeni tərzdə yazmış olduğu bu əsərində ilk olaraq Şərq və Qərb musiqi tendensiyalarını birləşdirərək tamaşaçıya təqdim etdi. Üzeyir Hacıbəyli burada Avropa musiqisinin əsas janrı olan opera janrına m

**Keywords:** Azerbaijani musicians, musical traditions, musical art, opera, orchestra
**Açar sözlər:** Azərbaycan musiqiçiləri,musiqi ənənələri , musiqi sənəti,opera, orkestr

XX əsrin əvvəllərində yaranan və çox uğurlu bir inkişaf yolu keçən Azərbaycan bəstəkarlarının musiqiləri musiqişunaslığımızın daima nəzər nöqtəsində olmuşdur.Musiqi sənətimizin əsil təməlini təşkil edən bu irs , təbii olaraq , hərtərəfli araşdırılır.

Azərbaycan musiqisi əsrlərdən keçən qədim tendensiyalara malik olaraq bu gün də yaşayan və gözəlliyini itirməyən muğam , aşıq sənəti , xalq mahnı və rəqslərdə davam edir. XX əsr Azərbaycan bəstəkar musiqisində yaşayan milli musiqi ənənələri ilə birlikdə Avropa musiqi ənənələrindən də istifadə olunması, bir-birindən çox uzaq iki musiqi mədəniyyət ənənələrinin birləşməsi deməkdir.

Azərbaycan professional musiqi sənətində musiqi tendensiyalarının tətbiq olunması , öyrənilməsi və ən əsası mənimsənilməsi XX əsrin əvvələrindən başlayaraq çox ciddi və nizamlı inkişaf prosesi keçmişdir. Təbii olaraq bu proses bir zaman daxilində və eyni zamanda işgüzar səylər nəticəsində yüksək nöqtəyə çatır. Bu isə ciddi üslub axtarışların və böyük əməyin bir bəhrəsi kimi dəyərləndirilə bilər. Bunun qarşısında keçən əsrin əvvəllərində bünövrəsi qoyulan yeni Azərbaycan bəstəkar musiqisi durur. Bu möhtəşəm əhəmiyyətli işin yükünü və çətinliyini tamamilə anlayan və eyni zamanda onun məsuliyyətindən qorxmayan yalnız dahi sənətkar və ölməz musiqimizin banisi ÜzeyirHacıbəyli ola bilərdi.

XX əsr Azərbaycan msiqisinin yaradıcısı özünün qeyri adi istedadı , yüksəs peşəkarlığı və fitri yaradıcılığı boyu nümayiş etdirdiyi fədakarlığı sayəsində bu işin həm öhdəsindən gəldi, həm də yaratdığı yeni Azərbaycan musiqisinin inkişaf yolunu müəyyənləşdirdi. Ən ürəyaçan cəhət odur ki, Üzeyir Hacıbəyli qorxmadan , əsl islahatçı kimi çıxış edərək , qədim milli musiqimizi daxilən genişləndirdi , ona yeni nəfəs, yeni yaradıcılıq potensialı daxil etdi. Elə buna görə də musiqi sənətimizin simasını köklü şəkildə dəyişmiş oldu.

Çoxşaxəli yaradıcı fəaliyyəti ilə məşhur olan sənətkar musiqi dünyamızda o qədər işlər görüb ki, bütün bunların nəticəsini bu gün də aydın hiss edirik. Şərqin ilk opeasının, ilk konservatoriyasının, ölkəmizin ilk xor kollektivinin və Azərbaycan xalq çalğı alətləri orkestrinin yaranması birbaşa Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Deməк olar ki, Azərbaycan musiqi mədəniyyətində bütün yeniliklər, ilklər Ü. Hacıbəylinin imzası ilə başlayıb. Ümumiyyətlə , onun fəaliyyətinin müxtəlif sahələrində , yəni bəstəkarlıqda, musiqi təhsilində, musiqişunaslıqda, musiqi nəzəriyyəsi və başqalarında əldə olunan uğurlar, nailiyyətlər olduqca əlamətdar və zəruridir. Musiqimizin banisinin bütün etdikləri yenilikləri dəyərləndirərək , xüsusilə qeyd etmək istərdik ki, Üzeyir Hacıbəylinin ən böyük yaradıcılıq uğuru milli musiqi ənənələrimizi Avropa musiqi ənənələri ilə birləşməsinə nail olmasıdır. Yəni başqa sözlə desək, sənətkarın yaradıcılığında Şərq və Qərb musiqi tendensiyalarının üzvi qovuşması baş verir. Bunu XX əsr Azərbaycan musiqisinin tərəqqisini müəyyənləşdirən əsas qanunauyğunluğu və Üzeyir Hacıbəylinin dahiyanə bədii kəşfi kimi qiymətləndirmək lazımdır.

Beləliklə Ü. Hacəbəylinin yaradıcılığında himi qoyulan bu məsələyə Azərbaycan bəstəkar musiqisində hər zaman böyük maraq və ciddi yanaşma özünü büruzə vermişdir. Sözsüz ki, milli və Avropa musiqi ənənələrinin qovuşması məsələsi musiqişunaslıq üçün eyni dərəcədə zəruridir və onun ətraflı və dərin öyrənilməsi hər zaman gözə çarpandır. Nə qədər ki, söhbət bəstəkar yaradıcılığından gedir , burada istifadə olunan bu və ya digər ənənə individual yanaşmanı tələb edir. Məhz elə bununla üslub spesifikliyi məlum olur. Ona görə də Azərbaycan bəstəkar musiqisində ənənə məsələsi olduqca geniş həllini tapır. Bu baxımdan ötən əsrin bəstəkar yaradıcılığında romantik musiqi ənənələrinin rolu diqqəti cəlb edir.

Üzeyir Hacıbəylinin müdrikliyi ondan ibarətdir ki, o, öz yaradıcılığında avropa musiqi tendensiyalarını mənimsəmək prosesini klassik ənənələr vasitəsilə həyata keçirir.Bəstəkar mədəniyyətin klassik , cəlbedici, mükəmməl ənənələrinə üz tutaraq onların birləşməsinə inandırıcı şəkildə nail ola bilmişdir. Daha sonra yeni bəstəkar nəslinin nümayəndələri bu prosesə qatılaraq Şərq- Qərb ənənələrin kontekstinə öz münasibətini bildirir və bunun hesabına Azərbaycan professional musiqisinin məntiqli inkişafı təmin olunurdu.

XX əsr Azərbaycan mədəniyyətinin və xüsusilə musiqi mədəniyyətinin ən mükəmməl uğuru Azərbaycan professional bəstəkar musiqisinin yaranması ilə əlaqədardır. Bu missiyanı öz öhtəsinə götürən və onu əhəmiyyətli dərəcədə həyata keçirən Azərbaycan musiqi tarixində adı qızıl hərflərlə yazılan , musiqimizin banisi Üzeyir bəy Hacıbəyli olmuşdur.

Sözsüz ki, musiqiçi bütün bu işlərin nə dərəcədə çətin və məsuliyyətli oldğunu tam məsuliyyəti ilə anlayırdı və o, Azərbaycan musiqisində yeni yollar araşdıraraq onun müqəddəratı haqqında ciddi qərarlar verirdi. Onu da qeyd etmək lazımdır ki, bu yola çıxan musiqiçi çox gənc olmasına baxmayaraq, Üzeyir Hacıbəyli əsl cəsarət göstərərək 1907- ci ildə “ Leyli və Məcnun” operasını artıq yazıb bitirmiş olur və 1908- ci ilin yanvarın 25 –də Zeynalabdin Tağıyev teatrının səhnəsində tamaşanın primyerası göstərilir.

XX əsr Azərbaycan musiqisi tarixində sensasiya xarakterli bu əsərin özünəməxsus yer tutması hamıya yaxşı məlumdur. Bu əsərin yaranmasından bir əsrdən çox zaman keçməsinə baxmayaraq , tamaşaya olan tamaşaçı münasibəti heç dəyişmədi. Ümumiyyətlə zaman bu əsərin qarşısında tam acizdir və demək olar ki Üzeyir Hacıbəylinin ilk operası bu günədək öz dəyərini qoruyub saxlamağa nail oldu.

Uzun illər səhnələrdən düşməyən , musiqişünaslıqda öz əksini tapan bu əfsanəvi əsərə olan yanaşma ümumilikdə dəyişmir. Dəyişən tariximizin ayrı-ayrı zamanlarında operanın ünvanına müəyyən tənqidi fikirlər səslənsə də, onlar bu əsərin yaranması və mahiyyəti qarşısında tam acizdirlər.

Üzeyir bəy Hacıbəylinin “ Leyli və Məcnun “ əsərinə həsr olunan çap yazılarından iki misalı nəzərinizə çatdıraq. Müəllifin etdiyi iş müxtəlif zamanlarda yazılan yazılarda çox yüksəs qiymətləndirilir. 1908 ci ildə “ Seqodnya” qəzetində çapdan çıxan “ Leyli və Məcnun” əsərinin üçüncü tamaşasından yazılır və diqqətimizi bu sözlər cəlb edir. “ Bu operanın keyfiyyəti barəsində bəhs açmasaq da, onun maraqlı olduğunu qeyd etməmək olmaz. Çünki bu müsəlman operası olmaq etibarilə yeni bir hadisədir. “

İkinci misal “Rampa i jizn” jurnalındandır. Bu jurnal 1915- ci ildə dərc olunmuşdur. Müəllif qeyd edir ki, “ bəstəkar cənab Hacıbəyov bizim milli musiqimizdə yeni dövr açan pionerdir. Yeddi il bundan qabaq o ilk “ Leyli və Məcnun “ operasını yazmışdır. Bu opera onun yaradıcılıq məharətini açıb göstərdi.

Demək olar ki ,XX əsr Azərbaycan professional musiqisinin başlanğıcını məhz “ Leyli və Məcnun” operası təşkil edir. Bu öz növbəsində çox zəruri bir gerçəklikdir və onun böyük nailiyyəti , təbii ki, bəstəkarın fəaliyyətini də olduqca səmərəli edir. Belə ki, “ Leyli və Məcnun” bir əsər kimi fərqli , maraqlı təəssürat yaradır və bunu əlbəttə görməmək mümkün deyil.

Bəstəkar qələmə aldığı , tamamilə yeni tərzdə yazmış olduğu bu əsərində ilk olaraq Şərq və Qərb musiqi tendensiyalarını birləşdirərək tamaşaçıya təqdim etdi. Üzeyir Hacıbəyli burada Avropa musiqisinin əsas janrı olan opera janrına müraciət edir.

Bu operada bəstəkar Azərbaycan musiqisinə xas olan bir çox məsələləri önə gətirir ki bu da böyük marağa səbəb olur. Üzeyir Hacıbəylinin bu operada Məhəmməd Füzulinin poemasına müraciət etməsi mükəmməl, uğurla nəticələnmişdir. İki gəncin faciəli sevgisnə həsr olunan bu əsər səhnədə o dərəcədə təbii və inandırıcı şəkildə tamaşaçıya təqdim olunur ki ,

tamaşaçı uzun müddət onun təəssüratı ilə yaşayır. Müəllif operada musiqi və dramın tam vəhdətinə nail olur və bu da onun əsl uğuru, əsl müvəffəqiyyətidir. Elə bu cəhətlər əsərin bi günkü günümüzədək səhnələrdən düşməməyinə səbəb olur.

Ümumiyyətlə " Leylivə Məcnun" musiqi baxımında çox maraqlı əsərdir və müəllifin buraya yerləşdirdiyi hər bir musiqi nömrəsi tam milli musiqi ənənələrinə söykənir.Janrına görə muğam operası sayılır. Muğam vokal formalarının funksiyasını yerinə yetirir.

Lakin Üzeyir Hacıbəylinin operasının musiqi nömrələrinin hamısını təkcə muğamlar təşkil etmir. O. Azərbaycan xalq mahnı nümunələrindən də lazımınca istifadə etmişdir. Məsələn ," Bu gələn yara bənzər", "Evləri var xana-xana" kimi xalq mahnılarının bu əsərdə istifadəsini qeyd edə bilərik. Operanı açan müqəddimə səslənərkən, Avropa musiqisindən gələn ənənə dərhal hiss olunur.

Bütün bunlarla yanaşı operanın musiqisində xor nümunələrindən də istifadə edildiyini mütləq qeyd etməliyik. Bu nömrələrin sadə dildə yazılmasına və sayının az olmasına baxmayaraq onlar musiqi dramaturgiyasında vacib və əhəmiyyətli roy oynayırlar. Xorlardan başqa operada orkestr nömrələri də xüsusi diqqət cəlb edir. Bu orkestr nümunələrini sadalamaqla bəstəkarın öz yaradıcılığına həddindən artıq ciddi münasibəti və işinə olduqca məsuliyyətlə yanaşmasının bir daha şahidi oluruq.

Ümumiyyətlə , Üzeyir Hacıbəylinin Avropa ənənələrinə münasibəti həddindən çox maraqlıdır və sözsüz ki çox şeydən xəbər verir. Bu ənənələrdən istifadə məsələsi vacib və mənalıdır. Bu ənənələr klassik ənənələrdir. Dahi bəstəkarın bu addımı məntiqli olaraq Şərq və Qərb mədəniyyətlərinin bir birinə yaxınlaşmasını Avropa klassik ənənələri ilə qovuşmasını nəzərdə tutur. Bunun da nə qədər düzgün və eyni zamanda təbii şəkildə baş verməsini musiqi banimizin dərin biliyə sahib olmasının , müdrikliyinin , zəngin intuisiyaya sahib olmasının təzahürü kimi qeyd etmək lazımdır.

**Ədəbiyyat:**

1. Zemfira Səfərova "Azərbaycan musiqi elmi", Bakı 2006
2. Azərbaycan Milli Ensiklopediyası, "Azərbaycan" xüsusi cildi (Azərbaycan dilində), Bakı 2007
3. Azərbaycan xalq musiqiçiləri. B.: Yazıçı nəşriyyatı . 1985. 480 s.